Qısamüddətli elmi

təcrübəkeçmə müsabiqəsi

EİF-Mob-5-2014-2(17)- QMTK

Lahiyənin rəhbəri: Mehdizadə Gülşən Kamal qızı

№EİF-Mob-5-2014-2(17)-14/11/5

**Layihənin adı** Qazax və Azərbaycan təhsil sistemində Ana dili dərslərində şagirdlərin fəallığını təmin etməkdə interaktiv təlim texnologiyasının (İbtidai siniflərdə Kurikulum üzrə) tətbiqində oxşar və fərqli cəhətlərin tədqiqi

| | | |
|---|---|---|
| **Elm sahəsi** | *Təsnifat üzrə elm sahəsinin kodu:* 5-07 | *Təsnifat üzrə elm sahəsinin tam adı:* Pedaqoji |
| **Elmi istiqamət** | *Təsnifat üzrə elmi istiqamətin kodu:* 5-07-02 | *Təsnifat üzrə elmi istiqamətin tam adı:* Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə) |

| | |
|---|---|
| **Layihənin xarakteri**<br><br>*(bir elm sahəsi üzrə; elm sahələrinin qovşağında* olan)*<br><br>**Qovuşan elm sahələri olduğu halda Təsnifat üzrə hər bir elm sahəsinin və elmi istiqamətlərin kodunu da göstərməli* | *(burada doldurmalı)* |
| **Qısamüddətli elmi təcrübənin keçirilməsi nəzərdə tutulan ölkə və şəhər** | *(burada doldurmalı*<br><br>Qazaxıstan Respublikası. Almata şəhəri. |
| **Qısamüddətli elmi təcrübənin keçirilməsi nəzərdə tutulan təşkilatın və onun struktur bölməsinin tam rəsmi adı** | *(burada doldurmalı)*<br><br>Abay adına Qazaxıstan Milli Pedaqoji Universitetinin Pedaqogika və Psixologiya İnistitutunun Məktəbəqədər və ibtidai təhsilin nəzəriyyəsi və metodikası kafedrası |
| **Layihənin icra müddəti**<br><br>*(Təcrübəkeçmənin başlanma və bitmə tarixi) (cəmi günlərin sayı)* | *(burada doldurmalı)*<br><br>Başlanma tarixi: 19 noyabr 2014-cü il<br><br>Bitmə tarixi: 19 dekabr 2014-cü il<br><br>Cəmi günləri:<br><br>30 gün |

---

| |
|---|
| **Təcrübəkeçmənin baş tutacağı təşkilatın rəhbəri**<br><br>*(soyadı, adı, atasının adı)*<br><br>Pedaqogika və Psixologiya İnistitutunun direktoru,<br><br>Pedaqoji elmlər doktoru, professor Kenesbaev Serik Muxtarlı |
| **Təcrübəkeçmənin baş tutacağı təşkilatda təcrübəkeçməyə məsul şəxs**: P. e. doktoru, professor Jumbayeva Asiya Yeleupan qqızı.<br><br>(Məktəbəqədər və İbtidai təhsilin metodikası və nəzəriyyəsi kafedrasının müdiri). |

Təcrübə keçmənin ilk günü, ilk tanışdığım Abay adına Qazaxıstan Milli Pedaqoji Universitetinin "Psixologiya və Pedaqogika İnstitutunun" direktoru Pedaqoji elmlər doktoru, professor Kenesbayev Serik Muxtarlı ilə oldu. Mən Abay adına Qazaxıstan Milli Pedaqoji Universitetinin Psixologiya və Pedaqogika İnstitutunun "Məktəbəqədər və İbtidai təhsilin metodikası və nəzəriyyəsi" kafedra-sında elmi təcrübə keçməyimə razılıq verdiyinə görə Serik Muxtarlıya təşəkkürümü bildirdim. O, "Psixologiya və Pedaqogika İnstitutunun" "Məktəbəqədər və İbtidai təhsilin metodikası və nəzəriyyəsi" kafedra fəaliyyətindən bəhs etdi. Daha sonra təcrübə keçəcəyim müddətdə mənə elmi tövsiyələri ilə yardım edəcək (elmi rəhbərim) Pedaqoji elmlər doktoru, professoru "Məktəbəqədər və İbtidai təhsilin metodikası və nəzəriyyəsi" kafedra-sının müdiri Jumbayeva Asiya Yeleupan qızı ilə tanış etdi. Həmin gün kafedranın əməkdaşları ilə tanışlıq zamanı vurğulandı ki, bu ay adı çəkilən İnstitutun tarixin-də önəmli tarixi hadisəsiləri ilə yadda qalan olacaq. İlk öncə Abay adına Qazax-ıstan Milli Pedaqoji Universitetinin "Psixologiya və Pedaqogika İnstitutunun" Ukraynanın Boris Qrinçenka adına Kiyev Universiteti və Rusiya Federasiyasının Moskva Pedaqoji Universiteti ilə bağlanmış olan müqavilələrin məzmunundan və məqsədindən bəhs edildi. Müqaviləyə əsasən 21.11.-06.12.2014 tarixlərində Rusiya Federasiyasının Moskva Dövlət Pedaqoji Universitetinin pedaqogika elmləri doktoru, professoru Dmitriyev Yuriy Aleksandr oğlu tərəfindən "İbtidai təhsildə müasir innovasiyalar texnologiyası " adlı treninq məşğələləri həyata keçirildi. Treninq zamanı nümayiş edilən metod və vasitələr müəllim və tələbə heyətinin marağına səbəb oldu. Sonda mən də treninq iştirakçısı olaraq Sertifikatla təltif olunub (Surətini əlavə etmişəm).

Kafedranın əməkdaşlarının təşkil etmiş olduqları Qazxstan Respublikasının ucqar dağ bölgələri ilə on-line dərsin keçirilməsinin önəmli xarakter daşıdığı vurğulandı. Keçirilmiş olan on-line dərsin məqsədi şəhər və ucqar bölgələrin elmi nailiyyətlərinin paralel səviyyədə inkişafına xidmət edir. Şəhərdə uğurla sınaqdan keçmiş hər hansı bir elmi nailiyyət(burada metod) qazax və rus dilində bölgələrlə də paylaşılır. İnteraktiv təlim metodunun metod və vasitələri nəinki, şəhərdə, müşahidələrimə əsaslanıb qeyd edim ki, bölgələrdə də uğurla tətbiq olunur. Universiteti hər bir auditoriyası elektron lövhələrlə təchiz olunub, TTV-nin təchizatı tələbələrdə fərəh hissi oyadırdı. Tələbələr hazırlamış olduqları slaytları fərəhlə təqdim edirdilər.

İnteraktiv təlim – idrak fəaliyyətinin təşkilinin xüsusi bir formasıdır. Bu təlim növü çox konkret və proqnozlaşdırıla bilən hədəfi nəzərdə tutur. Məqsədi rahat təhsil əldə etməkdir ki, şagirdlər öz uğurlarını hiss edə bilir, intelektual səviyyəsini, təlim prosesini daha məhsuldar etməyi, bilik və bacarıqları öyrətmək, həmçinin təhsildən sonra yaranan problemlemləri həll edən baza yaratmaqdır. Başqa sözlə interaktiv təlim - hər şeydən əvvəl dialoq təlimdir. Bu zaman şagirdlər öz aralarında və şagird-müəllim arasında qarşılıqlı ünsiyyətdə olurlar. İnteraktiv təlim metodunun məqsədləri aşağıdakılardır:

- Təhsil alanda maraq oyatmaq
- Dərs materialının keyfiyyətli mənimsənilməsi
- Şagirdlərdə  müstəqil şəkildə çalışmaq və qərar vermək bacarığı aşılmamaq
- Şagirdlərin arasında münasibətlərin yaradılması, komanda şəklində işləməyi öyrətmək, istənilən baxışdan səbr nümayiş etdirmək, hər kəsin fikir azadlığına və şəxsiyyətinə hörmət etmək
- Şagirdlərin fikir və münasibətlərinin formalaşdırılması
- Həyat və təcrübə bacarığının formalaşdırılması
- Şagirdlərin şüur səviyyəsinin nəzərə alınması.

İnteraktiv təlimin istifadəsində müəllimin rolu kəskin dəyişir, mərkəzdə olmaqdansa , o prosesi tənzimləyir və onun ümumi təşkilini təmin edir, əvvəlcədən zəruri tapşırıqları deyir və təşkil olunmuş qrupda sual və ya mövzunu formalaşdırır, məsləhət verir, nəzərdə tutulan planın həll olunmasında vaxt və intizamı nəzarətdə saxlayır. İştirakçılar sosial təcrübəyə müraciət edirlər-özlərinin və başqa insanların , eyni zamanda bir-biri ilə ünsiyyətdə olurlar, nəzərdə tutlmuş tapşırıqları birlikdə həll edirlər, münaqişələri aradan qaldırıb, ümumi razılığa gəlir-lər.

Təlim və tərbiyə prosesinin həll olunmasında müəllimlər interaktiv təlimdən

aşağıdakı qaydalar üzrə istifadə edə bilərlər:

- Dəyirmi masa (müzakirə)
- Beyin hücumu (breynstorm)
- Case-study (məlum vəziyyətin analizi)
- Yüksək səviyə

Nəzərdə tutulmuş təhsildə interaktiv təlim metodu təklif olunur. İnteraktiv təlimin müxtəlif üsullarla tətbiq olunur.İnteraktiv təlim formasının tətbiqi zamanı müəllimlərin qarşısında öyrətmək deyil, problemin həllini öyrənməyi öyrətməkdir.

İnteraktiv məşğələlərdə iş prinsipi dərs-mühazirə deyil, şagirdlərin müstəqil, yaradıcı, bərabərhüquqlu fəaliyyətidir. Tədris zamanı hər bir şagird müzakirəyə təqdim olunmuş suala öz şəxsi fikri ilə cavablandıra bilər, başqa birinin tənqidinə yer yoxdur (iştirak etdiyim dərslərdən foto şəkillər təqdim etmişəm).

Elmi təcrübə aldığım Pedaqogika və Psixologiya İnstitutunun yaradıcısı - pedaqogika elmləri doktoru, professoru Romseyid Məhəmmədcan oğlu Koyanbayevin 75 illik doğum günü xatirəsinə həsr edilmiş elmi Konfransda iştirak etdim (2-10 dekabr 2014-cü iltarixlərində).

Konfransda mərhum alimin 1988-ci ildə Pedaqogika və Psixologiya İnstitutunu  hansı çətinliklər bahasına açdığı barədə və elmi fəaliyyətindən, ideyalarından elmi məruzələr oxundu (02.,03.12.2014). Daha sonra yeni innovasiyalar metodlarından bəhs edən müəllim və tələbələrin iştirakı ilə prizentasiyalar təqdim olundu (04.12.2014). Ən maraqlısı proqramda da

göstərildiyi kimi R.M.Koyanbayevin məzunları ilə on-line görüş oldu. Qazaxstanda və ölkə hüdudlarından kənarda çalışan məzunların xatirələrindəki hörmət və ehtiram dolu söhbətləri hər kəsin riqqətinə səbəb oldu (05.12.2014). Konfransın növbəti iki günündə 08.09.12.2014-cü il tarixlərində tələbələrin iştirakı ilə R.M.Koyanbayevin humanist pedaqoji fəaliyyətindəki baş vermiş hadisələrdən ibarət səhnəciklər təqdim olundu və görkəmli elm xadiminin həyatından bəhs edən viktarina keçirildi. Sonda bədii gecə şəklində R.M.Koyanbayevə həsr edilmiş "" kitabının təqdimat mərasimi keçirildi (Proqramın surətini təqdim etmişəm).

Qazax və Azərbaycan təhsil sistemində Ana dili dərslərində şagirdlərin fəallığını təmin etməkdə interaktiv təlim texnologiyasının (İbtidai siniflərdə Kurikulum üzrə) tətbiqində oxşar və fərqli cəhətlərin tədqiqi – adlı lahiyəmin tədqiqi ilə əlaqədar təcrübə keçdiyim kafedranın müəllim heyətindən məsləhətlərimi aldım:

1. Jumabayeva Asiya Yeleupan qızı- Kafedra müdiri,P.e.d., professor- Qazax dilinin metodikası (Dərslik müəllifi "Qazax dili" 2-4 siniflər)
2. Uaysova Gülnar İnamat qızı –P.e.n., professor:Qazax dilinin tarixi metodikası, Qazax dilionin əsası (Dərslik müəllifi "Qazax dili" 2-4 siniflər)
3. Lebedyeva Larisa Anatoli qızı – P.e.n., dosent – Rus dilinin metodikası, Nitq inkişafı, Nitq inkişafı üzrə praktikum. Rus dilinin əsası.
4. Nizamova Mahinur Nurməhəmməd qızı- P.e.n., dosent –Profesional (peşəkar) rus dili.
5. Ospanova Toleqen Karajan oğlu – P.e.n., professor
6. Kdırbayeva Azatgül Əhməd qızı - P.e.n., professor
7. Valiullina Rəmziyə - P.e.n., dosent
8. Akpayeva Asel Bakir qızı - P.e.n., dosent

Təcrübə keçdiyim Universitetin kitabxanalarından başqa, Qazaxstan Respublikasının Elmi kitabxanasından və Milli kitabxanasından da bəhrələndim (foto şəkilləri və üzvlük vəsiqələrinin surətini təqdim etmişəm).

Abay adına Qazax Milli Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən «Хабаршы» «Вестник» jurnalının "Pedaqoqika elmləri" seriyasına "Необходимость появления курикулума и применение методов интерактивного обучения" adlı məqaləmi çap olunmuşdur. Казахский национальный педагогический университет имени Абая ВЕСТНИК №1(45),2015 г.стр.61-65.

Sonda əldə etmiş olduğum elmi materialları elmi rəhbərim və kafedranın yüksək elmi dərəcəli alimləri ilə sistemləşdirdik.

Mən öz növbəmdə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı fonduna təşəkkür edərək, qeyd etmək istəyirəm ki, əldə etmiş olduğum elmi təcrübəni və müşahidələrimi elm sahəsində tətbiq etməklə yanaşı, təmsil etmiş olduğum müəssisə - Azərbaycan Dövlət Pedaqoji Universitetilə Abay adına Qazax Milli Pedaqoji Universiteti arasında körpü yaratmış oldum.

| | |
|---|---|
| Lahiyə rəhbəri: | Mehdizadə Gülşən Kamal qızı |
| Tarix: | 19.12.2014-cü il |